# VACİB MİLLİ SƏRVƏT

**BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qordon Birrellin XTTM təlim mərkəzinin 10 illiyinə həsr edilmiş çıxışı**
**27 may 2014-cü il**

Möhtərəm qonaqlar, xanımlar və cənablar,

Biz burada çox əlamətdar bir hadisəni – dünya səviyyəli Xəzər Texniki Təlim Mərkəzinin (XTTM) fəaliyyətə başlamasının 10 illiyini qeyd edirik.

Ötən on il ərzində XTTM Azərbaycanın ən nüfuzlu - uğur tarixçəsi ictimaiyyətə bir o qədər də məlum olmayan təlim mərkəzlərindən birinə çevrilmişdir.
Bu mərkəz daha çox tanınmağa layiqdir. O, 2004-cü ilin may ayında açıldığı vaxtdan etibarən 900 nəfərdən çox yerli texnikə təlim keçirilib. Onların böyük əksəriyyəti Xəzər regionunda BP-nin idarə etdiyi, dənizdə və quruda yerləşən qurğularda işə təyin edilib.

Lakin, XTTM bundan da artıq iş görüb:

- O, regionda BP-nin həyata keçirdiyi texniki əməliyyatlarda əməyin təhlükəsizliyi mədəniyyətinin ardıcıl tətbiqini təmin edib.

- O, texniklərin milliləşdirilməsi ilə bağlı planımızın həyata keçirilməsində bizə dəstək olub.

- O, əsas diqqəti səriştə əsaslı təlimlərə yönəltməklə yüksək səviyyəli təlimi sürətləndirib.

- Bu mərkəz nisbətən qısa müddət ərzində Azərbaycanda neft və qaz sektorunda ixtisaslaşmış çox sayda texniklər yetişdirib – onların hamısı beynəlxalq standartlara uyğun təlim keçib.

- Və o, bizə bütün regionun enerji sektorunda daha yüksək təlim standartlarına təkan vermək üçün istifadə edə biləcəyimiz bir platforma təmin edib.

Mən başa düşürəm ki, bütün bunlar çox iddialı səslənir. Amma bunlar həqiqətdir. Bu sənayedə biz milyardlarla dollar dəyərində investisiyaları xüsusi vurğulayırıq. Biz dəniz platformalarının, Səngəçal terminalının və BTC boru kəmərinin tikintisi kimi böyük infrastruktur nailiyyətlərini qeyd edirik.
Lakin, çox vaxt bir şeyi nəzərimizdən qaçırıq ki, hər bir işin arxasında insanlar və xüsusən də quyularımızda qazma işi aparan, qurğularımızı idarə edən, avadanlıqlarımıza xidmət göstərən texniklər dayanır.

Bugünkü tədbir bizə fürsət verir ki, bu işi qaydasına qoyaq, çox sağol deyək və XTTM-dəki təlim sahələrinin əhəmiyyətini vurğulayaq. Bu sahələrdən sadəcə üçünün adını qeyd etsək, qazma əməliyyatlarını idarəetmə otağının trenajor kompleksini, Əməliyyatlar üzrə Təlim Qurğusunu və emalatxana kompleksini misal göstərmək olar.

Bu mərkəzin məzunları həqiqətən də bizim biznes əməliyyatlarımızın onurğa sütunudur – onlar planları gerçəkliyə çevirən insanlardır. Onlar XTTM-də təlim

keçdikdən sonra vacib keyfiyyətləri XTTM-dən kənrada da yayırlar – xüsusən də əməyin təhlükəsizliyi və məhsuldarlıq üzrə daha yüksək standartların vacib əhəmiyyətini təbliğ edirlər.

Biz burada əldə edilmiş nailiyyətlərə görə təşəkkür etməli olduğumuz bir çox təşkilat və insanlar var. İlk növbədə, bu mərkəzin qurulmasında bizə yardım etmiş və o vaxtdan bəri çox dəstək göstərmiş Azərbaycan hökumətinə; ikincisi, on il ərzində XTTM-in maliyyələşdirilməsinə yardım etmiş bizim AÇG, Şahdəniz, BTC və CQBK layihələrindəki tərəfdaşlarımıza və o cümlədən ARDNŞ-yə;

üçüncüsü isə, təlim proqramının həyata keçirilməsində texniki bilik və təcrübəni təmin edən və mərkəzin fəaliyyətinə dəstək olan "TTE-Petrofac" şirkətinə öz minnətdarlığımızı bildiririk. Onlar mükəmməl bir iş görüblər və bu, təqdir olunmalıdır. Biz təkbaşına bütün bu işlərin öhdəsindən gələ bilməzdik.

Bu təlim mərkəzi öz xərclərini əhəmiyyətli dərəcədə doğruldur və biznes əməliyyatlarımıza nəhəng töhfə verir.  Biz ona dəstək verməkdə davam etmək niyyətindəyik.

Bütün bunlarla yanaşı, bu, bizim Azərbaycanda digər təlim təşəbbüslərinə və xüsusən də ARDNŞ-nin Qobustan Regional Təlim Tədris Mərkəzinə dəstək vermək öhdəliyimizi vurğulamaq üçün gözəl bir imkandır. Biz Səngəçal terminalı yaxınlığındakı qəsəbələrdə yaşayan 100 nəfər üçün peşə və texniki təlimi maliyyələşdirməklə Qobustan Təlim Tədris Mərkəzi ilə əməkdaşlıq etməyi öhdəmizə götürmüşük.

Bizim XTTM-də həyata keçirdiyimiz hər iki təşəbbüs və ARDNŞ ilə olan yeni saziş daha bir məqamı da vurğulayır – BP və onun tərəfdaşlarının mümkün qədər tez bir zamanda Azərbaycandakı yerli işçi qüvvəmizin təkmilləşdirilməsi ilə bağlı götürdüyü uzunmüddətli öhdəliyi əks etdirir.

Biz 2014-18-ci illər üzrə yeni plan qəbul etmişik. Bu plana əsasən müxtəlif təşəbbüslər və ümumi yeni hədəf kimi 2018-ci ilin sonunadək ixtisaslaşmış işçi qüvvəsinin 90%-nin milliləşdirilməsi nəzərdə tutulur. Hazırda Azərbaycanda BP şirkətində 2854 nəfər Azərbaycan vətəndaşı işləyir ki, bunların da 85%-i ixtisaslaşmış kadrlardır. Onların bir çoxu çox yüksək vəzifələrdə işləyir.

Şirkətimizdə XTTM-də təlim keçmiş bir sıra yüksək vəzifəli kadrlar işləyir. Bu da, mərkəzin on illik fəaliyyəti dövründə onun böyük nüfuzu və nailiyyətlərini göstərən bariz nümunədir. Əminəm ki, qarşıdan gələn illərdə hələ daha çox uğurlar əldə olunacaq.

Diqqətinizə görə minnətdaram!